*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 183-198*
https://doi.org/10.62837/2024.7.183

**ƏHMƏDOVA FƏQANƏ**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**faqana220580@gmail.com**

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ CLİL (MƏZMUN DİL İNTEGRASİYALI ÖYRƏNMƏ) METODU

**XÜLASƏ**

Tədrisə inteqrasiya olunmuş fənn-dil yanaşması (CLIL) ikinci və ya xarici dil vasitəsi ilə qeyri-linqvistik fənnin tədrisinin müxtəlif vəziyyətlərini əhatə edən geniş anlayışdır. CLIL mövzu məzmunu ilə dil öyrənmə arasında balansı nəzərdə tutur. CLIL xarici dilin öyrənilməsində yeni bir yanaşma kimi artıq yavaş-yavaş Avropa ölkələrində qəbul olunmağa və hətta bəzi ölkələrdə müəllimlərdən öz siniflərində CLIL-dən istifadə etmək tələb olunmağa başlandı. CLIL sosial, mədəni, koqnitiv, linqvistik, akademik və digər öyrənmə bacarıqlarının inkişaf etdirilməsini nəzərdə tutan bir yanaşma olduğuna görə həm məzmun, həm də dilin öyrənilməsini asanlaşdırır. CLIL-in tətbiqinin vacib səbəblərindən biri təhsil sektoruna bu günün tələbələrinə uyğun, həm də gəncləri sabahın iş dünyasına hazırlamağa kömək etməkdir.

Metod bir sıra ölkələrin məktəblərində çox populyardır və tələbələrin dil öyrənməyə marağını xeyli artırır. CLIL texnologiyasının tətbiq olunduğu dərslərdə xarici dil öyrənmək sadəcə tapşırıq deyil, yeni fənni öyrənmək üçün bir vasitəyə çevrilir. Tələbə kifayət qədər böyük həcmdə dil materialından keçir ki, o tam şəkildə təbii dil mühitinə düşür.Mövzunun ingilis dilində tam öyrənilməsinin təşkili asan məsələ deyil. Lakin CLIL texnologiyasının elementlərinin sinifdə tətbiqi onun kifayət qədər uğurlu təzahürüdür.Öz növbəsində, CLIL texnologiyası iki növə bölünür: 1.Soft - ingilis dilindən tərcümədə "yumşaq". Bu, sinifdə sadə elementlərin, xüsusən terminlərin və qısa ifadələrin istifadəsini nəzərdə tutur.

2.Hard - dili yaxşı bilmək və onun praktik tətbiqini tələb edən daha mürəkkəb formadır.

Müxtəlif mövzuların öyrənilməsi təkcə terminləri deyil, həm də müəyyən dil strukturlarını öyrənməyə imkan verir ki, bu da tələbənin həm söz ehtiyatını artırır, həm də onu yeni bilik və bacarıqların sonrakı öyrənilməsinə və tətbiqinə hazırlayır.

**Açar sözlər: məzmun, komponent, inteqrasiya, ünsiyyət, bacarıqlar**

Məzmun və Dil İnteqrasiyalı Öyrənmə (CLIL) termini 1994-cü ildə Finlandiya və Hollandiya ekspertlərinin rəhbərlik etdiyi komissiyada Avropa miqyasında dil öyrənmənin effektivliyini artırmaq məqsədilə yaradılmış və bu

metodun dövlət tərəfindən maliyyələşdirilən məktəblərdə və kolleclərdə tətbiq olunması müzakirə edilmişdir .

O zaman CLIL-in tətbiq edilməsi həm siyasi, həm də maarifləndirici xarakter daşıyırdı. Metodun siyasi xarakteri Avropa İttifaqı daxilində dil öyrənmənin daha yüksək səviyyəyə çatdırılması tələbi ilə bağlı idi. Təxminən iyirmi ildən sonra CLIL konsepsiyası təkcə əlavə dillərə çıxışı təkmilləşdirmək üçün deyil, həm də bütövlükdə kurrikuluma innovativ və praktiki əhəmiyyət gətirmək üsulu kimi ortaya çıxdı.

CLIL xarici dilin öyrənilməsində yeni bir yanaşma kimi artıq yavaş-yavaş Avropa ölkələrində qəbul olunmağa və hətta bəzi ölkələrdə müəllimlərdən öz siniflərində CLIL-dən istifadə etmək tələb olunmağa başlandı. Görünən budur ki, CLIL gələcəkdə Avropanın əksər ölkələrində getdikcə daha çox istifadə olunacaq.

CLIL tam olaraq nədir?

"CLIL həm məzmunun, həm də dilin öyrənilməsi və öyrədilməsi üçün əlavə dilin istifadə olunduğu iki yönümlü təhsil yanaşmasıdır." (EuroCLIC 1994)

Sadə dillə desək, CLIL həm məzmun öyrənilməsini, həm də dil öyrənməsini birləşdirir. Belə ki, şagirdlər məktəb fənlərindən bir və ya bir neçəsini hədəf dildə, çox vaxt ingilis dilində, bəzən isə başqa ikinci dildə öyrənirlər. Təhsilə başlamazdan əvvəl şagirdlərdən yeni dildə bacarıqlı olmaları gözlənilmir. Onlar fənni öyrənməklə eyni vaxtda öyrənmək üçün lazım olan dili öyrənirlər.

CLIL ilə məzmunu öyrənmək və dili öyrənmək eyni dərəcədə vacibdir. Hər ikisi şagirdlər üçün vacib kurikulum fənləridir və yavaş-yavaş, lakin davamlı şəkildə inkişaf etdirilir və inteqrasiya olunur. Uzun müddətdə şagirdlər həm məzmunu, həm yeni dili öyrənmiş olurlar.

CLIL tətbiq edildiyi sinifdə dil müəllimləri eyni zamanda da fənn müəllimləri funksiyasını icra etməli olurlar. Bu zaman müəllim dilin öyrədilməsini və öyrənməni fənn üzərindən tətbiq etdiyinə görə digər fənn müəllimlərinin də dəstəyinə ehtiyac duyur. Əsas dildə fənni öyrənən şagird bird daha yeni dil üzərindən fənnə aid məlumatları öyrənmiş olur. CLİL yanaşmasının iki yönümlü olması müəllimlərə hər iki dildən istifadə edərək şagirdlərə bilmək istədikləri hər şeyi izah etməyə imkan verir ki, nəticədə şagirdlər onları daha yaxşı başa düşə bilsinlər. Eləcə də fənn müəllimi fənni yeni dildə tədris edərkən bu yanaşmadan istifadə edərək eyni zamanda dil müəllimindən dəstək ala bilər.

CLİL-in dərsdə tətbiqi zamanı müəllimlər şagirdlərə özləri üçün məlumatları necə tapacaqlarını, yeni ideyalar kəşf etmək üçün birlikdə işləməyi və danışmağı göstərməlidirlər ki, dildən istifadə öyrənmə prosesinin bir hissəsi olsun. Başqa sözlə, müəllimlər öz metodologiyasını dəyişməli və şagirdlərin öyrənməsinə kömək etmək üçün müxtəlif yollar tapmalıdırlar. Bu yanaşma şagirdləri layihə komandalarında işləmək bacarığına yiyələnməklə müasir dünyaya hazırlayır və onlara müxtəlif ölkələrdəki məktəblərlə ünsiyyət qurmaq imkanı verir.

Beləliklə, CLIL gəncləri gələcəyə hazırlamaq, müstəqil öyrənmə və anlama üçün ilk addım təmin edir.  CLIL üç əsas xüsusiyyətə malikdir:

a) Əlavə dilin öyrənilməsi elm, tarix və ya coğrafiya kimi məzmun fənlərinə inteqrasiya olunur. Tələbələr məzmunun asanlaşdırıldığı dili öyrənirlər.

b) CLIL müxtəlif sosial-linqvistik və siyasi kontekstlərdə yaranır və məktəbəqədər, ibtidai, orta, ali peşə və peşə təhsilinə qədər istənilən dil, yaş və təhsil səviyyəsinə aiddir. CLIL çoxdillilik və multikulturalizm, inteqrasiya, anlaşma və ömürboyu təhsil proqramını dəstəkləyir.

c) CLIL sosial, mədəni, koqnitiv, linqvistik, akademik və digər öyrənmə bacarıqlarının inkişaf etdirilməsini nəzərdə tutan bir yanaşma olduğuna görə həm məzmun, həm də dilin öyrənilməsini asanlaşdırır.

CLIL-in tətbiqinin vacib səbəblərindən biri təhsil sektoruna bu günün tələbələrinə uyğun, həm də gəncləri sabahın iş dünyasına hazırlamağa kömək etməkdir.

XX əsrdə işçi qüvvəsi üçün lazım olan bacarıqlar indikindən daha sadə idi. Məktəblər əvvəllər şagirdlərə oxumağı, yazmağı və hesab etməyi öyrətməklə, onlara yaşadıqları dünya haqqında bəzi məlumatlar verməklə onları işə hazırlayırdılar. Onlar gündəlik rejimə əməl etməyə, məlumatları yadda saxlamağa və göstərişləri yerinə yetirməyə alışmalı idilər.

Bunun əksinə olaraq, müasir dünyada tələbələri işə hazırlayarkən, hansı bacarıqlara ehtiyac ola biləcəyini düşünməliyik. Onlar müstəqil olaraq nə vaxt və necə işləyəcəkləri mövzusunda çevik olmalı, İT bacarıqlarına yiyələnməli, internet və ya sosial media vasitəsilə lazım olan hər hansı məlumatı əldə etməyi bacarmalıdırlar. Eyni zamanda fərdi işlə yanaşı onlar layihə komandalarında əməkdaşlıq etmək və bunun üçün zəruri sosial ünsiyyət bacarıqlarına malik olmalıdırlar. İş yerləri daim dəyişib inkişaf etdikcə işçilər fənn səriştələri üzrə yaxşı təlimlərdən keçməli, əlavə bacarıqlara yiyələnməli və dil öyrənməyə həvəsləndirilməlidirlər. Müəllimlər gələcəkdə öz işinə görə məsuliyyət daşıyan, başqa insanlarla əməkdaşlıq edə bilən gənclər yetişdirməlidirlər.

Təhsil müəssisələrində  CLIL sinifləri qurarkən məzmun və dil müəllimləri arasında əməkdaşlıq edilməsinə üstünlük verilir. Lakin bu, həmişə mümkün olmur və CLIL müəllimləri çox vaxt hər iki rolu yerinə yetirməli olurlar. Bu, əsasən öz fənləri üzrə məlumatlı olan, lakin hədəf dildə biliyi olmayan müəllimlərin CLIL-dən istifadə etmək istədikləri vaxt narahatlığa səbəb olur.

Aşağıdakılar məzmun müəlliminin tipik şərhidir:

"Mən CLIL fənn müəllimiyəm və tələbələrimin hansı məzmunu öyrənməsini istədiyimi bilirəm. Bəs mən onlara hansı dildə öyrətməyimi hardan biləcəyəm?" CLIL müəllimləri tələbələrə adətən dil dərslərində öyrəndikləri dili öyrətmirlər. CLIL tələbələri qrammatik inkişafa əsaslanan proqrama əməl etmirlər. Yəni CLIL müəllimləri Əsas Şəxslərarası Ünsiyyət Bacarıqlarını (BICS) öyrətmirlər.

Bəs CLIL müəllimləri hansı dili öyrədirlər? Onu üç kateqoriyada təsvir etmək olar. İlk növbədə, CLIL tələbələri öyrəndikləri mövzu üzrə məzmuna uyğun lüğəti bilməlidirlər, məsələn, coğrafiya üçün “relyef”, “yayla”, “estuar” və ya riyaziyyat üçün "kəsr", "onluq" və s. Həmçinin mövzu üçün lazım olan qrammatika, məsələn, tarix fənni üçün keçmiş sadə zamanın işlədilmə qaydası “used to-ardı-ərdi” və ya “if-əgər, then-sonra” tipli cümlələr və s.

CLIL tələbələri həmçinin dərs zamanı fəaliyyətləri yerinə yetirmək üçün lazım olacaq dili, məsələn, "there is- vardır" və ya "there are-var idi" kimi cümlə başlanğıcları və "firstly - ilk olaraq", "after that-bundan sonra" və ya "finally-nəhayət" kimi ardıcıllıq işarələrini öyrənməlidirlər. CLIL tələbələri düşüncələrini təhlil etmək, kateqoriyalara ayırmaq, və ya dizayn etmək kimi problemləri həll etməyə kömək edən dil növünü öyrənirlər. Bu dil öyrənmə növü CALP – Koqnitiv Akademik Dil Yetərliliyi adlanır. BICS və CALP Jim Cummins (1979) tərəfindən təqdim edilən terminlərdir.

CLIL-dən istifadə etməyin faydaları nələrdir?

CLIL metodu aşağıdakı üstünlüklərə malikdir:

Dil səriştəsini və şifahi ünsiyyət bacarıqlarını təkmilləşdirir;

Çoxdilliliyə olan maraq və münasibətləri inkişaf etdirir;

Mədəniyyətlərarası ünsiyyət bacarıqlarını inkişaf etdirir;

Kontekstin müxtəlif perspektivlərdən öyrənilməsinə imkan yaradır;

Mədəniyyətlərarası bilik və anlayışı formalaşdırır;

Öyrənənlərə hədəf dildə daha çox ünsiyyət etməyə imkan verir;

Yüksək səviyyəli və eləcə də aşağı səviyyəli düşüncə bacarıqlarını inkişaf etdirir;

Öyrənənlərin həm dilə, həm də mövzuya olan motivasiya və özgüvənini artırır;

Əlavə dərs saatları tələb etmir

Müəllimlər CLIL dərsini planlaşdırarkən dörd kriteriyanı nəzərə almalıdırlar:

1. Məzmun
2. Ünsiyyət
3. Bacarıqlar
4. İdrak.

1. Məzmun tədris olunan mövzuya aiddir. Bəzi yerlərdə fənlər ayrıca, bəziləri CLIL yanaşmasına əsasən tədris olunur. Belə ki, məktəblər kurikulumlararası tədrisə və öyrənməyə üstünlük verir, yəni müəllimlər və tələbələr CLIL-dən istifadə etməklə tədris olunan müxtəlif fənlərə toxunan mövzularla işləyirlər.

2. CLIL dərsləri intensiv dil tətbiqini tələb edir ki, bu da digər amillərlə yanaşı, güclü dil inkişafına gətirib çıxarır. Daha praktik mənada bu o deməkdir ki, müəllimlər birgə tədris üsullarına və şagirdlər arasında qarşılıqlı əlaqəyə üstünlük verməlidirlər. CLIL proqramında müəllim özünün danışıq vaxtını azaltmaq üçün konkret addımlar atmalı, beləliklə, şagirdin danışıq vaxtını artırmalıdır.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 183-198*

3. CLIL kurikulumlarında mədəniyyət anlayışı müəllimlərə şagirdlərlə açıq münasibət saxlamağa və hadisələrə müxtəlif perspektivlərdən baxmağa kömək edən dərslər hazırlamağa imkan yaradır. Bu mənada CLIL həm qlobal, həm də yerli perspektivlərin inkişafına kömək edir ki, şagirdlər ətraflarında gördükləri ilə dünyada baş verənlər arasında əlaqə yarada bilsinlər. CLIL siniflərində multikulturalizm də ciddi şəkildə təbliğ olunur.

4. İdrak CLIL-də dərsin planlaşdırılmasının əsas komponentidir. Bu ona görə vacibdir ki, məzmun və dilin inteqrativ şəkildə öyrənilməsinə çalışarkən düzgün idrak strategiyalarından istifadə etmək tələbə uğuru üçün həlledici ola bilər. Bu səbəbdən müəllimlər müxtəlif idrak qabiliyyətlərinin nə olduğunu, onların necə inkişaf etdirildiyini və öyrənmə ilə necə əlaqəli olduğunu bilməlidirlər. Müəllimlər Bloom Taksonomiyası (yüksək və aşağı səviyyəli düşünmə bacarıqları), kimi mövzuları yaxşı bilməlidirlər.

Aşağı səviyyəli düşünmə bacarıqları (LOTS) məlumatı yadda saxlamaq və anlamaq kimi bacarıqlardır. Onlar tez-tez anlayışı yoxlamaq və öyrənməni nəzərdən keçirmək üçün istifadə olunur. Aşağı səviyyəli düşünmə bacarıqları adətən qapalı sualları əhatə edən yeni mövzu biliklərini yadda saxlamaq, anlamaq və tətbiq etmək bacarıqlarıdır. Öyrənənlər, məsələn, yeni lüğəti tanıdıqda, təsnif etdikdə, nümunələr verəndə və obyektləri müqayisə etdikdə aşağı səviyyəli düşünmə bacarıqlarını inkişaf etdirirlər.

Yüksək səviyyəli düşünmə bacarıqları (HOTS) müəllimlərin (gənc) öyrənənlərə təhlil və qiymətləndirmə kimi idrak bacarıqlarını inkişaf etdirməyə kömək edir. Yüksək səviyyəli düşünmə bacarıqlarına bir şey haqqında düşünmək və bu barədə qərar vermək, problemin həlli, yaradıcı düşüncə, bir şeyin üstünlükləri və zərərləri haqqında düşünmək daxildir. Məsələn, sinifdə müəllim tələbələrdən düşünməyi və müzakirə etməyi xahiş edir. Yüksək səviyyəli düşünmə bacarıqları müzakirə və qərar qəbul etməyi, analiz etmə, qiymətləndirmə və yaradıcı düşünmə kimi bacarıqları əhatə edir. Bunlar əsaslandırma bacarıqlarını, tənqidi mühakimə yürütmək və yeni ideyalar yaratmaq bacarığını inkişaf etdirir. Yüksək səviyyəli düşüncə inkişaf etmiş dilin istifadəsini nəzərdə tutur.

Xarici dilin tədrisində CLIL-in tətbiqi fəal metodlara, birgə sinif idarəetməsi və bütün ünsiyyət növlərinə (linqvistik, vizual və kinestetik) əsaslanır:

CLIL-də yeni dilin istifadəsi nəticəsində yaranan problemləri aradan qaldırmaq üçün audio-vizual vasitələrdən və multimedia vasitələrindən istifadə etmək vacibdir.

İkinci dilin və məzmunun eyni zamanda tədrisi islahat, sadələşdirmə və nümunəviləşdirmə kimi dil strukturlarını əhatə etməlidir.

CLIL müəllimi tərəfindən lingua franca-dan (SLF) istifadə minimum səviyyədə saxlanılmalı və müvafiq hallar istisna olmaqla, bundan qaçınılmalıdır.

Komanda işi bacarıqları CLIL müəllimlərinə kurrikulumun hazırlanması zamanı və tədris zamanı tələb olunur.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 183-198*

Dərsləri planlaşdırarkən müəllimlər tələbələrin dil səviyyəsini nəzərə almalıdırlar. Təcrübədə, tədrisdə CLIL yanaşması bütün kurrikulumun yeni dildə

öyrədilməsindən (ümumi immersiya) tutmuş, fənn məzmununa diqqəti cəlb etmək üçün dil kurslarının uyğunlaşdırılmasına qədər bir çox formada olur.

Proksimal İnkişaf Zonası (ZPD) və Scaffoldingin CLIL-də tətbiqi eyni zamanda biliyin və dilin qurulması prosesidir. Tələbələr demək olar ki, həmişə öyrənəcəkləri məzmun və dil haqqında bəzi əsas biliklərlə malik olurlar. Hər CLIL dərsini tələbələrin artıq malik olduğu təməl biliklər üzərində qurmaq üçün yeni məzmun və yeni dil təqdim olunur. Tələbələr bir-biriləri ilə, müəllimlə və multimedia resursları ilə qarşılıqlı əlaqə vasitəsilə sadə məlumatlardan həqiqi anlayışa və bacarıqlara keçərək yeni biliklər qazanırlar.

Yüksək məlumatlılıq və hərtərəfli səriştə arasında tələbələr yeni bilik və bacarıqlar qazanır, lakin onları hələ müstəqil və inamlı şəkildə istifadə edə bilmir. Öyrənmə zamanı inkişafın bu aralıq mərhələsi Vygotskinin "Proksimal İnkişaf Zonası" (ZPD) metaforası ilə təsvir olunur. Öyrənmənin bu aralıq mərhələsində öyrənənin özündən daha yüksək bilik və ya bacarıq səviyyəsinə malik olan birinin dəstəyi ilə tam və müstəqil biliyə doğru irəliləməsinə kömək etmək olar. Verilən müvəqqəti dəstək "Scaffolding" adlanır, çünki o, öyrənənlərin növbəti anlayış və bilik səviyyələrini qura biləcəkləri bir platformanı təmin edir. Metafora kimi scaffolding, öyrənənlərə hələ özləri etməyə hazır olmadıqları şeylərə nail olmaqda necə kömək oluna biləcəyini təsvir etmək üçün istifadə olunur. Scaffolding həm məzmunun, həm də dilin öyrənilməsi üçün dəstəyi təsvir edir. Öyənənlər situasiyada istədiklərini necə deyəcəyinə əmin olduqdan sonra dil biliklərini başqa situasiyalarda heç bir problem olmadan istifadə edə bilərlər. Lazım olan bilik, bacarıq, anlayış artıq kənar dəstək olmadan istifadə edilə bilər. Məsələn, dinləmə bacarığını inkişaf etdirərkən, biz öyrənənə öz diqqətini istifadə olunan xüsusi zaman formasına yönəltməklə mənanı anlamağa kömək edə bilərik, mütaliə zamanı müəllimin konkret mətnlə bağlı verdiyi sorğular tələbələri aydın başa düşməyə istiqamətləndirə bilər, yazı bacarıqları model mətnlər, qrafiklər vasitəsilə inkişaf etdirilə bilər. Scaffolding öyrənmənin dinamik elementidir. Cədvəllər, qrafiklər, və xəritələr kimi vasiələr məlumatların emalına imkan verir, müqayisə, təzad, ardıcıllıq və əlaqəni anlamaq, təsnif etmək kimi düşünmə bacarıqlarını inkişaf etdirir.

CLIL tədrisinin əsas məqsədi şagirdlərə problemləri həll etmək üçün müstəqil işləməyə, öz bilik və bacarıqlarını inkişaf etdirməyə kömək etməkdir. CLIL müəllimləri buna öz yanaşmalarını dəyişməklə,öyrənmə prosesinin mərkəzində şagird və tələbələrinin olmasına nəzarət etməklə nail ola bilərlər. Belə ki, müəllim öyrənənlərin ehtiyacları və maraqları ilə əlaqə yaratmağa çalışmalı, onların bir-birləri ilə ünsiyyətinə həvəs yaratmalı, ehtiyac duyduqların ı,düşündüyü sözləri əvvəlcədən öyrətməkdənsə, ehtiyac duyduqları zaman öyrənmələrini təmin etməli, bütün şagirdlərin eyni şəkildə işləməsini gözləməməli, onlara öz öyrənmə üslublarını və strategiyalarını inkişaf etdirməyi tövsiyyə etməli, tələbələrə müstəqilliyin

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 183-198*
aşılanmasının daha yaxşı öyrənmə ilə nəticələnəcəyinə inanmalıdır. CLIL müəlliminin ən vacib və ən çətin rollarından biri şagirdlərə müstəqil olmağı öyrətməkdir.

İnteraktiv ünsiyyət CLIL-in dörd "C"-lərindən biridir. CLIL yanaşması öyrənmənin sırf daxili və koqnitiv proses olmasına deyil, əksinə bilik və anlayışların paylaşılaraq öyrənilməsinə əsaslanır.

Tələbələr arasında interaktiv əlaqəni artırmaq üçün dərs zamanı müəllim fəal təlimin iş formalarından istifadə edir:

Cütlərlə iş - Müəllim yüksək səviyyəli düşüncə bacarıqlarına aid sual verəndə və ya həll etmək üçün problemi təsvir edəndə, yaradıcı tapşırıq qoyanda bəzi şagirdlər bütün sinifin qarşısında, xarici dildə danışmaqdan çəkinə bilərlər. Müəllim kömək etmək üçün "düşün, birləşdir, paylaş" funksiyasından istifadə edə bilər.

Hər şeydən əvvəl tələbələrə bir az səssiz düşünmə vaxtı verilir ki, onlar cavabı öz zehinlərində təkrarlaya bilsinlər. Sonra hər bir şagirddən öz fikirlərini partnyoruna söyləməsi xahiş olunur ki, onlar həm fikirlərinin mənalı olub-olmadığını, həm də istifadə etdikləri dilin başa düşülən olub olmadığını öyrənə bilsinlər. Bu mərhələdə tələbələr demək istədiklərini sınamaq imkanı əldə edə bilirlər, öz fikirlərini bütün iştirakçılarla bölüşməyə daha inamlı olurlar.

Qrup işi – Tələbələr cütlər şəklində qarşılıqlı əlaqədə olarkən bir-birlərini daha yaxşı tanıyır və yeni əlaqələr qururlar. Bu, qrup üzvləri arasında əməkdaşlıq üçün faydalı prosesdir. Qruplarda birgə fəaliyyətdə olan tələbələr şagirdlər daha yaradıcı işləyə və dil bacarıqlarından daha çox istifadə edə bilərlər. Onlar öz güclü tərəfləri üzərində işləyə və öyrənmələrinə nəzarət edə bilərlər. Layihə uğurla başa çatdıqda, şagirdlər birlikdə danışmaq, məzmun və yeni dili birlikdə öyrənmə kimi çoxsaylı imkanlara malik ola bilirlər.

Cütlüklərlə və qruplarla iş yeni tendensiya deyil, lakin onlar CLIL yanaşmasının əsas komponentləridir. CLIL dərsində şagirdlərin irəliləyişini qiymətləndirərkən həm məzmunu, həm də dili nəzərə almaq çox vacibdir və qiymətləndirmələr hər ikisinə əsaslamalıdır. Ute Massler "İbtidai və məktəbəqədər təhsildə CLIL-in tətbiqi üçün Təlimat" kitabında (2011, p114) CLIL qiymətləndirməsinin ənənəvi metodlardan fərqli olduğunu deyir. CLIL dərsi bütün məqsədləri özündə əks etdirməlidir, buna səriştələr, biliklər, bacarıqlar, münasibət və davranışlar daxildir.

CLIL kurikulumu hazırlanarkən öyrənənlərlə bağlı xüsusi amillər nəzərə alındığı kimi, qiymətləndirmənin hazırlanması zamanı bu amillərdən bəziləri də nəzərə alınmalıdır. Məsələn, Massler aşağıdakı amilləri qeyd edir: məktəb təliminin müddəti; şagirdlərin ikinci dili öyrənməyə başladığı yaş; məzmun sahəsində inkişaf; hədəf dil səriştəsinin inkişafı; müsbət münasibətin inkişafı; həm hədəf dil, həm də məzmun sahəsinə doğru; həm dil, həm də məzmun üzrə strateji səriştənin inkişafı.

Beləliklə, CLIL öyrənmənin qiymətləndirilməsi adi məktəb testindən fərqlidir. CLIL ilə tələbə eyni zamanda yeni məzmun və yeni dil öyrənir və müəllim

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 183-198*
hər bir tələbədə irəliləyişi qiymətləndirə bilməlidir. CLIL müəllimləri həm öyrənənləri fənnin məzmununu başa düşmələri üzərində işləməyə həvəsləndirmək, həm də onları düzgün dil istifadəsinə yönəltmək üçün qiymətləndirmə və əks əlaqədən istifadə edə bilərlər.

CLIL ilə dil öyrənmək öyrənəndən sosial, tarixi və təbiət hadisələrini təhlil etmək,

tapşırıqları yerinə yetirmək, problemləri həll etmək, başqaları ilə ünsiyyət quraraq çıxışlar etmək tələb edir. Kommunikativ fəaliyyət təkcə özünü təkmilləşdirməyə deyil, həm də dərk etməyə, anlayışların və hadisələrin inkişafını analiz etməyə və məlumat mübadiləsi aparmağa əsaslanır. Fənlərin məzmunun və metodologiyasının cəlbedici olması dili və mövzunu öyrənməni gücləndirir. CLİL dərsində fəaliyyətlər öyrənməyə təşviq edilmə üsuludur və uğurlu CLIL tədrisi onların seçilməsindən və təşkil olunmasından asılıdır. Fəaliyyətləri iki böyük qrupa ayıra bilərik: çalışmalar və tapşırıqlar (Barbero, 2012). Çalışmalar keçmiş biliklərə əsaslanır və dilin formal aspektlərinə görə strukturlaşdırılır.Tapşırıqlar isə nəticə əldə etmək üçün biliyin praktiki istifadəsini nəzərdə tutur. CLİL-də lüğətin öyrənilməsi tamamlama, izahat,

qrafiklər, xəritələr, sxemlər, diaqramlar, mətn qurma kimi müxtəlif fəaliyyətlərlə həyata keçirilir. Bu cür fəaliyyətlər scaffolding üsulu ilə dəstəklənir. Ənənəvi qiymətləndirmə formaları tələbələrin dərsə hazırlıq səviyyəsinə uyğun olaraq aparılır və bu üsul CLIL üçün keçərli deyil, çünki burada həm məzmun, həm də dil inkişaf etdirilərək tələbələrin qiymətləndirilməsi mövzuya dair fəaliyyətlər çərçivəsində aparılır. Yəni müəllimlər öyrənənlərin mövzuya maraq göstərmələri mövzu haqqında nə bildiklərini soruşmaqla və mövzu haqqında fikirlərini bölüşmələrini təmin etməklə maraq oyatmağa çalışırlar. Bu öyrənənlərdə tənqidi düşüncənin inkişafına, mühakimə etmək yolu ilə öyrənməyə kömək edir.

Məzmun və dil inteqrativ şəkildə qiymətləndirilməzsə, CLIL-in ikili diqqəti itirilər. Bununla belə, bəzən məzmunun başa düşülməsinə, bəzən də düzgün dil istifadəsinə üstünlük verilə bilər. Bir sıra meyarların qiymətləndirilməsi öyrənmənin bir aspektinə diqqət yetirməkdən daha faydalıdır və rubriklərdən istifadə edilərsə, bu daha asan olur. Rubrik qiymətləndirmə aparmaq üçün xüsusi meyarları olan və bələdçi rolunu oynayan qiyətləndirmə cədvəlidir. Cədvəlin hər bir xanasında tələbənin qiymət əldə etmək üçün nə etməli olduğunu göstərən deskriptorlar var. Rubrikin necə tərtib olunması müəllimin şagirdlər həvəsləndirmək və işi uğurla başa çatdırmaq üçün ondan necə istifadə etməsindən asılıdır. Müəllim qiymətləndirmə meyarları seçə bilər. Məsələn, riyaziyyat tapşırığının meyarlarından biri dəqiq ölçmədirsə, tələbələr bunun mühüm bacarıq ölçüsü olduğunu bilirlər. Əgər komanda işi meyarlardan biridirsə, öyrənənlər birgə fəaliyyət etmək üçün səy göstərəcəklər. Üstəlik, əgər tələbəyə müəyyən bir kateqoriya üzrə aşağı qiymət verilirsə, o, daha uğurlu olmaq üçün nəyə diqqət yetirməli olduğunu bilir. Bu yolla, qiymətləndirmə tələbələrə öyrənmə məqsədini və hər hansı boşluqları necə müəyyənləşdirib

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 183-198*
tamamlamağı başa düşməyə kömək etməklə yanaşı onların müstəqilliyini artıra bilər. Layihə işini qiymətləndirərkən rubriklərin əhəmiyyəti ön plana çıxır.

CLİL metodu öyrənənlərin yerli və ya daha geniş ictimaiyyətlə müxtəlif fənlər üzrə ünsiyyət bacarıqlarını inkişaf etdirmək imkanlarının təmin edilməsinə əsaslanır. O daha çox tələbə mərkəzli yanaşmadır. Müəllim ancaq fasilitator rolunu oynayır.

CLIL tətbiqi çoxsaylı üstünlüklərə malik olduğuna görə, CLIL dərslərində uğur qazanmaq istəyən müəllimlər onun əsas prinsiplərinə əməl etməlidirlər (Mehisto et al., 2008):

1. Həqiqilik prinsipi - Dərsin mövzusuna uyğun vizual vasitələr, qəzetlər, broşuralar, şəkillər, videolar kimi orijinal materialların istifadəsi.

2. Diqqətin paylanması prinsipi - Müxtəlif fəaliyyətlərdən eyni zamanda istifadə etmək tələbələrin bir neçə bacarığı inkişaf etdirmələrinə kömək edir və öyrənməni avtomatlaşdırır.

3. Fəal öyrənmə prinsipi -Tələbələr həm hazırlıq, həm də təqdimat mərhələsində fəaldırlar. Müəllim tələbələri öyrənmənin bütün mərhələlərində fəal iştirak etməyə təşviq etməlidir.

CLIL metodunun tədqiqatı göstərir ki, o hədəf dildə ümumi səriştəni təkmilləşdirməyə, müəllimləri digər dillər vasitəsi ilə məzmun biliklərini inkişaf etdirməklə tələbələri beynəlxalq sferaya hazırlamağa təşviq edir. CLIL metoduna əsaslanan dərslərdə tələbələr bir-biriləri ilə əməkdaşlıq etməli və qruplarda səmərəli fəaliyyət göstərməlidirlər. Bu, müşahidə bacarıqları və dünya ilə qarşılıqlı əlaqəyə əsaslanan biliklərin qurulması kimi həyat bacarıqlarının inkişafına kömək edir.

Bununla belə, CLIL-in çoxsaylı üstünlüklərinə baxmayaraq, onu istifadə etməyi planlaşdırmazdan əvvəl nəzərə almalı olduğumuz bəzi məsələlər var. Məsələn, CLIL yanaşması müəllimdəm həm məzmunu, həm də dili bilməyi tələb edir. Əgər dil müəllimləri tədris olunan məzmun üzrə mütəxəssis deyillərsə, onlara sinfi idarə etmək və dərs planında nəzərdə tutulan addımları izləmək asan olmayacaq. Bu, xoşagəlməz öyrənmə fəaliyyətlərinə səbəb ola bilər. CLIL metodunun tətbiqində əsas amıl müəlimdir. Buna görə də müəllimlərin peşəkar inkişaf layihələrində iştirak etməklə CLIL konsepsiyaları üzrə təlim keçmələri və ixtisaslı olmaları vacibdir. İxtisaslı CLIL müəllimləri ümumi təhsil mühiti tərəfindən təqdim olunan problemlərin öhdəsindən gəlməkdə daha uğurlu olacaqlar.

həm öyrənənlər həm də müəlimlər üçün vacibdir. Tələbələrin hədəf dilə məruz qalmasını təmin etmək onlara başa düşməkdən istehsal etməyə keçməyə kömək CLIL xarici dilin məzmuna çıxışını təmin edir və məzmun kommunikativ səriştənin inkişafı üçün imkanlar təklif edir. Eyni zamanda dil də məzmunun öyrənilməsində maneə kimi görünür. Müəllimlər çox vaxt istər-istəməz şagirdlərə "mətni oxuyun və başa düşmədiyiniz bütün sözlərin altından xətt çəkin" deməklə öyrənənlərin diqqətini oxuduqları məzmuna deyil, anlamadıqları sözlərə yönəldirlər. Halbuki biz ana dilmizdə oxuduğumuz mətnlərin ümumi mənalarına diqqətimizi

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 183-198*
yönəltməklə məzmunu qavrayırıq. Bu zaman qarşımıza çıxan naməlum sözlər bizi çox narahat etmir və onların başa düşməyimiz üçün lazım olub-olmaması barədə ancaq mühakimə yürüdə bilərik. Ona görə də onlara çox əhəmiyyət vermədən oxumağa qərar veririk. Eynilə də xarici dilin tədrisi zamanı bu üsul tələbələr üçün motivasiya ola bilər, çünki onlar düşündüklərindən daha çox başa düşdüklərini öyrənirlər. CLIL müəllimi öyrənənlərə həm ideyaları, həm də artıq bildiklərini hədəf dildə aydın şəkildə ifadə etməyə kömək etməlidir ki, onlar yeni məzmunu, eləcə də yeni dili başa düşə bilsinlər. Tələbələrə bildikləri üzərində işləmək üçün vaxt vermək onların bildikləri ilə hələ bilmədikləri arasındakı boşluğu aşkar etməyə imkan verir və öyrənmə daha effektiv olur. Öyrənmə zamanı dildən mütəmadi istifadə mənimsəmə prosesini sürətləndirir. Bu fəaliyyətlər tələbələrə həm deyilənləri, həm də necə deyildiyini fərq etməyə təşviq edir. İnteraktiv nəzəriyyələr göstərir ki, dilin öyrənilməsində qarşılıqlı əlaqə vacibdir. Belə ki, eşitdiklərinin, oxuduqlarının, danışdıqların və ya yazdıqlarının mənasına diqqət yetirən öyrənənlər, əsasən qrammatik dəqiqliyə diqqət yetirənlərə nisbətən daha effektiv dil öyrənənlərdir. CLIL dilin mənimsənilməsi üçün faydalı metoddur, çünki o, həm dilin öyrənilməsi üçün lazım olan məzmunu (mənanı), həm də fənnin inkişafı üçün lazım olan dili təmin edir. Bunun üçün dərsin aktivləşdirmə mərhələsində şagirdlərin bir-biri ilə qarşılıqlı əlaqədə olması üçün cütlərlə və qruplarla işdən istifadə etmək vacibdir.

CLIL yanaşmasında konstruktivizm və sosial konstruktivizm də daxil olmaqla koqnitiv öyrənmə nəzəriyyələri mövcuddur. Konstruktivist öyrənmə zamanı öyrənənlər bildikləri məlmatları toplamaqla yeni məlumatı anlamağa çalışırlar. Yəni öyrənmə prosesi, öyrənənlərin öz öyrəndiklərini mənalandırdıqları zaman baş verir. Onlar bunu yeni ideyaları, məlumatları və dili mövcud bilik və təcrübələri ilə müqayisə edərək edə bilərlər. Əsas odur ki, müəllim yox, daha çox öyrənənlər öz əvvəlki bilikləri ilə fənnin məzmunu arasında əlaqə yaratsınlar.

Sosial konstruktivist öyrənmə nəzəriyyəsi öyrənmənin sosial, dinamik bir proses olduğunu və öyrənənlərin bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla öyrəndiklərini vurğulayır.

Xarici dili öyrənmək üçün öyrənənlər hədəf dildə çoxlu məlumat almalıdırlar. Bunun üçün mütəmadi dil mühitinin olması çox vacibdir. Hədəf dildə nə qədər çox ünsiyyət olarsa bir o qədər çox və daha sürətli öyrənmə baş verəcəkdir. Buna görə də, öyrənənlərin ingilis dilini sinif daxilində və ya xaricində çox oxuması və dinləməsi vacibdir. Bundan əlavə, müəllimlər yeni anlayışların çətinlik səviyyəsini və öyrənənlərin hər an qəbul edə biləcəyi yeni məlumatların miqdarını nəzərə almalıdırlar. Müəllimlər həmçinin məlumatın dili və məzmun səviyyəsi arasında tarazlıq tapmalıdırlar. Məlumatların qəbulu, dərk prosesi və öyrənmə üçün vizual dəstəklərin mühüm rolu vardır. Məzmun və ya dil çətin olarsa, müəllim mətni vizual və ya praktiki fəaliyyətlərlə dəstəkləyə və ya bir sıra müxtəlif tapşırıqlar verə bilər. Müəllimlər kurs kitablarında təqdim olunan vizual materiallardan istifadə edə, fotoşəkillər və ya video kliplər kimi digər mənbələri araşdıra bilərlər.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 183-198*

CLİL müəllimləri öyrənənlərin xarici dildə sərbəst danışdıqlarını amma akademik səviyyədə çətinlik çəkdiklərini müşahidə edə bilərlər. Bu xüsusda Professor James Cummins dilin iki ölçüsünü fərqləndirir: danışıq və akademik (Cummins, 2000). Birincisini o, Əsas Şəxslərarası Ünsiyyət Bacarıqları (BICS), ikincisini isə Koqnitiv Akademik Dil Bilikləri (CALP) adlandırır. BICS qeyri-rəsmi danışıq deməkdir, dərslərdə, əyləncələrdə, telefonda və ya idman oynayarkən istifadə olunan əsas dil bacarıqlarıdır. Dərsin giriş hissəsində BICS gündəlik dili başa düşməyə kömək edir, öyrənənlərin bir-biri ilə əlaqə qurmaları üçün kontekst haqqında vizual ipucları, jestlər və ya üz ifadələrindən istifadə edə biləcəyi vəziyyətləri idarə edir. İkinci dil öyrənənlər iki ildən beş ilədək BICS-ə nail olurlar.

CALP daha rəsmi, akademik dilin ölçüsünə aiddir. CALP tətbiq etmək, təhlil etmək və yaratmaq kimi yüksək düşünmə bacarıqları tələb edir. CALP-də öyrənənlərin başa düşməsinə kömək etmək üçün ipucları çox vaxt azdır və ya demək olar ki yoxdur. CALP üçün dərsin girişi dərslikdən oxunur və ya müəllim tərəfindən təqdim olunur. Bu zaman anlayışlar daha akademik tələblərə malikdir. Nəticə etibarilə, CALP üçün lazım olan danışıq və yazılı dil BICS ilə müqayisədə daha mürəkkəbdir.

Müəllimlər öyrənənlərə xüsusi CALP bacarıqlarını öyrədə bilər və BICS-dən CALP-ə tədricən keçmək üçün rəhbərlik edə bilərlər. İkinci dil öyrənənlərin akademik dil bacarıqlarına yiyələnmələri üçün beş ildən yeddi ilədək vaxt lazım ola bilər (Collier, 1995). İkinci dil öyrənənlərin mətnlərin 80%-ni anlaması üçün cəmi 2000 sözdən ibarət lüğət ehtiyatı kifayət edir. Akademik mətnləri oxumaq və anlamaq üçün isə təxminən 5000 sözdən ibarət lüğət kifayətdir. Lüğətin öyrənilməsi üç kateqoriyaya bölünə bilər: ümumi lüğət, mövzu terminologiyası və akademik sözlər. Eyni söz gündəlik danışıq dilində, mövzu dilində və ya akademik mətnlərdə istifadə olunmasından asılı olaraq müxtəlif mənalara malik ola bilər. CLIL öyrənənlər hər bir kateqoriyadan olan söz və ifadələri öyrənməli və istifadə etməlidirlər.

Ümumi lüğət gündəlik danışıq dilində işlənən sadə sözlərə aiddir; bunlar gündəlik həyatımızda fəaliyyətlərimizə əsasən istifadə olunan sosial sözlərdir.

Mövzu terminologiyası hər bir fənnə xas olaraq istifadə edilən sözlərdən ibarətdir, məsələn, kimyada molekul, fizikada elektromaqnit, tarixdə inqilab, dini təhsildə islam, biologiyada hüceyrə, riyaziyyatda vurma cədvəlləri, biznes sahəsində sövdələşmə, maliyyədə investisiya və s. kimi sözlər daxildir. Bu, fənn müəlliminin monodilli şəraitdə təbii olaraq məşğul olduğu dildir. Dərsliklərdəki fənn lüğətləri və lüğətlər fənn terminologiyasını öyrənmək üçün yaxşı mənbədir.

Akademik sözlər akademik mətnlərdə daha çox istifadə olunan daha formal sözlərdir. CLIL öyrənənlərin bu sözləri bilməsi, başa düşməsi və nəticədə istifadə etməsi vacibdir, çünki onlar BICS-dən CALP-a keçmək üçün tədricən daha akademik, rəsmi dili inkişaf etdirməlidirlər.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 183-198*

CLİL-lə tədrisdə qrup və cütlərlə işdən istifadə etmək səmərəli imkanlar təqdim edir, çünki öyrənənlər bütün sinif şəraitində olduğundan daha çox danışmaq şansı əldə edirlər. Müəllimlər öyrənənlərin bir-biri ilə hədəf dildə ünsiyyət qurmasını tələb edən tapşırıqlar qoymaqla nəticə əldə edə bilərlər. Bu proses mənanın müzakirəsi adlanır. Tələbələr qarşılıqlı ünsiyyətlə və başqalarından rəy almaqla məzmunla dilin uyğunluğunu, düzgünlüyünü kəşf edəcək və onların başa düşüldüyünü və ya başa düşülmədiyini mühakimə edə biləcəklər. Bu xüsusda müəllimlərdən nitq fəaliyyətini daha səmərəli təşkil etmək tələb olunur.

CLIL-lə tədris dil və məzmun arasında inteqrasiyanı özündə ehtiva etdiyinə görə kurrikulumlar arası yanaşma hesab edilir. Tələbələr bir və ya bir neçə fənnin aspektləri, eləcə də ingilis dilinin aspektləri üzərində işləyirlər, həm məzmun, həm də dil biliklərinə əsasən qiymətləndirilirlər.

CLİL-lə tədrisdə layihələrin tətbiq edilməsi xüsusi önəm daşıyır. Buna internet üzərindən saysız resurslar, video və əyani vəsaitlər, dil müəlliminin fənn müəllimi ilə birgə fəaliyyəti, müəllimin yaradıcı potensialı ilə nail olmaq olar. Layihə əsaslı CLİL dərsləri real həyat situasiyalarını, cəmiyyətlə əlaqədar bir sıra sahələri əhatə edə bilər. Dilin real həyat kontekstində istifadəsi CLIL öyrənənlər üçün daha real dil tələbləri yaradır. Bundan əlavə layihə zamanı istifadə olunan dil eyni zamanda öyrənənlərə real həyat situasiyalarında onu tətbiq etməyə imkan verir. Layihənin başlanğıcında müəllimlər layihənin təşkilatçılarıdır. Onlar işi planlaşdırır, göstərişlər verir və tələbələri qruplara bölürlər. Onlar layihənin mövzusunu və dil məqsədlərini, eləcə də gözlənilən son məhsulu müzakirə edir və qiymətləndirmə meyarlarını bölüşür. Müəllimlər həmçinin materialları və resursları təmin edə və ya tələbələrin özlərinin bunları haradan tapa biləcəyini izah edə bilərlər. Dərsin girişi zamanı müəllimlər öyrənənlərin marağına səbəb olmaq, onları mövzuya cəlb etmək üçün həvəsləndirici fəaliyyətlər, həmçinin layihənin müxtəlif mərhələlərində onlardan nə gözlənildiyini göstərmək üçün layihə cədvəli təqdim edə bilərlər. Layihənin gedişi zamanı müəllim müşahidəçi və fasilitator funksiyasını yerinə yetirir. Layihə tamamlandıqda isə müəllimin rolu layihənin son məhsulunu qiymətləndirmək olur.

## Nəticə

Məzmunla dilin inteqrasiyasına əsaslanan CLİL metodu 1990-cı illərdə yarandığı gündən bəri sürətlə inkişaf edən qlobal sosial və linqvistik transformasiyalardan güclü şəkildə təsirlənərək uzun bir yol keçmişdir. O, çoxdilliliyi və mədəni şüurluluğu dəstəkləyən və məzmuna əsaslanan ikidilli təcrübəni əhatə edən yanaşmadır. CLIL-in inkişafına qlobal sosial ekologiyada dil və ondan istifadənin rolunu tədqiq edən tədqiqatlar təsir edərək onun sinifdə və cəmiyyətdəki rolu haqqında yeni anlayış olaraq inkişaf etməsinə təkan vermişdir. CLIL, dil və məzmunun inteqrasiyalı şəkildə öyrənilməsini çoxdilli təfəkkürlə birləşdirməyi hədəfləyir. O, ikidilli təhsili daha geniş kontekst hesab edir və

ikidilliliyin inkişafını birdilli təhsilə paralel olaraq götürmür. CLIL 21-ci əsrin öyrənənlərinin ehtiyaclarına cavab verən mədəni, siyasi, sosial amilləri və öyrənənlərin dəyişən ehtiyaclarını, həmçinin dil və məzmunun tədrisini öz çərçivəsinə birləşdirən ekoloji yanaşmadır. O, digər ikidilli proqramlarda dil tədrisi təlimatları ilə bəzi ümumi xüsusiyyətləri paylaşsa da, fərqli yanaşma kimi xarakterizə edilən xüsusiyyətlərə malikdir.

CLIL yanaşması, müxtəlif yaş qruplarından öyrənənləri olan, müxtəlif təhsil kontekstlərində müxtəlif tətbiqləri əhatə edən ümumi çətir funksiyasını yerinə yetirir. Tətbiqindəki müxtəliflik CLIL-i əvvəlki əsrin metodlarından fərqləndirən xüsusiyyətdir. CLIL çoxdilli tədris fəlsəfələrinə hörmət etməyi, dili, məzmunu, ünsiyyəti, konteksti və idrakı ayrılmaz vahid varlıq kimi nəzərdən keçirməyi, təbii öyrənmə mühiti yaratmağı, koqnitiv və yaradıcı fəaliyyətə təşviq edən tapşırıqlarla təmin etməyi, birgə biliklərin qurulmasını, qarşılıqlı əlaqəyə təşviq edən, özünü və başqalarını dərk etməyi ehtiva edən müasir yanaşmalardan biridir. Bununla belə, qeyd etmək lazımdır ki, CLIL yanaşması inkişaf edən təhsil yanaşmasıdır və onun təcrübəsi problemsiz və mübahisəsiz deyil.

CLIL Məzmun və Dil İnteqrasiya edilmiş öyrənmə deməkdir. Bu, başqa bir fənni (məsələn, elm, tarix,ədəbiyyat və s.) eyni zamanda ingilis dili ilə inteqrasiya edərək öyrənmək deməkdir. İnteqrasiya bir çox müxtəlif yollarla baş verə bilər.

"CLIL" termini müasir olsa da, əslində öyrənmə texnikası bir o qədər qədimdir. Çünki dil dərslərində müxtəlif məzmunlu mətnləri öyrənərkən fərqinə varmadan CLİL istifadə olunur. Sadəcə CLİL, öyrənmənin effektivliyini artırmaq üçün pərakəndə məzmunlara deyil, fənnlərlə inteqrasiya edərək dil öyrədilməsini təmin edən bir yanaşmadır.

David Marsh və Do Coyle CLIL terminini 1990-cı illərin ortalarında, hökumətlərin, məktəblərin və fərdlərin birdən çox dil bilmənin vacibliyini dərk etməyə başladığı bir vaxtda ortaya atdılar. Bu yanaşma Avropada yayılaraq qloballaşmaya cavab olaraq bütün dünyada böyüməyə başladı və 1960-cı illərdə Kanada, Böyük Britaniya və ABŞ-da kurikulum proqramları ilə daha rəsmiləşərək xaricdə təhsil proqramlarını əhatə etməyə başladı.

Dil müəllimi ilk növbədə ingilis dilinin (və ya başqa dilin) tədrisinə cavabdehdir, lakin CLIL metodologiyasında o, eyni zamanda müəyyən bir fənnə (məsələn, tarix və ya biologiya) aid müvafiq lüğət və funksional dili təqdim etməklə məzmun müəlliminə dəstək olur. Nümunə olaraq coğrafiya dərsini düşünək. Məzmun müəllimi su dövranını şəkillər vasitəsilə ingilis dili və ya tələbələrin birinci dilində (L1) izah edir. İngilis dili müəllimi ardıcıllıq və prosesləri (first, next, then, after that), səbəb və nəticə üçün (because of, due to, results in) və (vapor, evaporate, evaporation) kimi söz formalarını izah etmək üçün dildən istifadə edə bilər. Burada fənn üzərindən dil öyrədilməsi və dil çalişmalarının fənnə istinadən qurulması prosesi baş verir. Belə ki, öyrənənlər doğma dillərində öyrəndikləri fənnləri dil dərsində bir növ təkrar edə, eyni zamanda fənnin məzmununu və fənnə aid

anlayışları, terminləri ingilis dilində öyrənə və fikirlərini xarici dildə ifadə etməyi öyrənmiş olurlar. Bu zaman dil müəllimi fənn müəllimi funksiyasını da yerinə yetirmiş olur.

Təhsil müəssisəsi daxilində CLIL metodunun uğurlu tətbiqi kooperativ təşkilati struktura ehtiyac duyur, bu o deməkdir ki, məzmun müəllimi və dil müəlliminin bir-biri ilə işləməsi üçün bir yol olmalıdır, məsələn, onlar müəyyən vaxtda görüşüb dərsləri əlaqələndirmək barədə müzakirə apara bilərlər.

Geniş şəkildə desək, CLIL metodu öyrənənlərin mövzu sahəsində biliklərini artırmaqla yanaşı, onların hədəf dil üzrə bilik və bacarıqlarını təkmilləşdirmək məqsədi daşıyır. Onlar artıq əldə etmiş olduqları biliklərin üzərinə yeni bir dil əlavə edirlər.

## ƏDƏBİYYAT

1. CLIL Skills. Liz Dale, Wibo van der Es rosie Tanner 2011
2. TKT. Content and Language Integrated Learning (CLIL) (Cambridge Assessment English) 2019
3. On DEVELOPING MATERIALS FOR CLIL (Article in SOCIETY INTEGRATION Proceeding of the International Scientific Conference – May 2020)
4. Teaching Materials and CLIL Teaching. Maria Antonietta Marongui 2019.
5. CLIL and the teaching of foreign languages. Blanka Frydrychova Klimova 2012.
6. CLIL Content and Language Integrated Learning. Do Coyle, Philip Hood, David Marsh 2010.
7. The magazine for teachers of English ( SPRING 2019 N 6) Bılıngual Express.
8. CLIL Planning Toolkit by Do Coyle University of Nottingham, 2005
9. KURİKULUM. İlkin Həsənov, Aynur Rüstəmova, Nigar Babayeva 2020, səh: 176
10. Broughton G. Teaching English as a Foreign Language. 2nd ed. London: Routledge Press, 1994, 252 p.
11. Brown D. Principles of language learning and teaching. 4th ed. London: Pearson Education Press, 2000, 354 p.
12. Diane L., Freeman A.M. Techniques and Principles in Language Teaching. 3rd ed. Oxford: Oxford University Press, 2011, 316 p.

**FAGANA AHMADOVA**

## CONTENT AND LANGUAGE INTEGRATED LEARNING (CLIL)

A subject-language integrated approach to teaching (CLIL) is a broad concept that covers different situations of teaching a non-linguistic subject through the medium of a second or foreign language. CLIL involves a balance between subject content and language learning. CLIL as a new approach to foreign language learning is already slowly being accepted in European countries, and in some countries even teachers are required to use CLIL in their classrooms. CLIL facilitates both content and language learning as it is an approach that involves the development of social, cultural, cognitive, linguistic, academic and other learning skills. One of the important reasons for the introduction of CLIL is to help the education sector to be relevant to today's students, but also to prepare young people for tomorrow's world of work.

The method is very popular in schools of a number of countries and greatly increases students' interest in language learning. In classes where CLIL technology is applied, learning a foreign language becomes not just a task, but a tool for learning a new subject. The student goes through a large enough amount of language material that he completely falls into the natural language environment. Organizing the full study of the subject in English is not an easy task. However, the application of elements of CLIL technology in the classroom is a rather successful manifestation of it. In turn, CLIL technology is divided into two types:

1. Soft - translated from English as "soft". This involves the use of simple elements in the classroom, especially terms and short expressions.
2. 2. Hard - a more complex form that requires a good knowledge of the language and its practical application.

Studying different topics allows you to learn not only terms, but also certain language structures, which increases the student's vocabulary and prepares him for further learning and application of new knowledge **and skills.**

**Keywords: content, component, integration, communication, skills**

.

**ФАГАНА АХМАДОВА**

## ИНТЕГРИРОВАННЫЙ ПРЕДМЕТНО-ЯЗЫКОВОЙ ПОДХОД К ОБУЧЕНИЮ (CLIL)

Интегрированный предметно-языковой подход к обучению (CLIL) — это широкая концепция, охватывающая различные ситуации преподавания неязыкового предмета посредством второго или иностранного языка. CLIL предполагает баланс между содержанием предмета и изучением языка. CLIL

как новый подход к изучению иностранных языков уже постепенно принимается в европейских странах, а в некоторых странах даже учителя обязаны использовать CLIL в своих классах. CLIL облегчает изучение как содержания, так и языка, поскольку этот подход предполагает развитие социальных, культурных, когнитивных, лингвистических, академических и других навыков обучения. Одной из важных причин внедрения CLIL является то, чтобы помочь сектору образования быть актуальным для сегодняшних студентов, а также подготовить молодых людей к за Метод очень популярен в школах ряда стран и значительно повышает интерес учащихся к изучению языка. На занятиях, где применяется технология CLIL, изучение иностранного языка становится не просто задачей, а инструментом изучения нового предмета. Студент проходит достаточно большой объем языкового материала, чтобы полностью попасть в естественную языковую среду. Организация полноценного изучения предмета на английском языке – непростая задача. Однако применение элементов технологии CLIL на занятиях является довольно успешным ее проявлением. В свою очередь, технология CLIL делится на два типа:

1. Soft – в переводе с английского «мягкий». Это предполагает использование простых элементов в классе, особенно терминов и коротких выражений.

2. Твердый – более сложная форма, требующая хорошего знания языка и его практического применения.

Изучение разных тем позволяет выучить не только термины, но и определенные языковые конструкции, что увеличивает словарный запас учащегося и готовит его к дальнейшему обучению и применению новых знаний и умений.

**Ключевые слова: содержание, компонент, интеграция, общение, навыки.**

**Rəyçi: f.f.d. dos.Qasımova Emiliya**